# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 134** **QƏRAR** **Bakı şəhəri, 17 mart 2016-cı il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 177 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət müəssisə və təşkilatlarının, habelə nizamnamə kapitalında dövlətin payı olan müəssisələrin balansında olan yararsız hala düşmüş, həmçinin oğurlanmış və ya naməlum şəraitdə itmiş əsas vəsaitlərin (fondların) silinməsi və bu vəsaitlərin söküntüsündən əldə edilən material qiymətlilərinin satışı üzrə Qaydalar"da dəyişikliklər edilməsi haqqında

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.8-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 177 nömrəli qərarı(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 965; 2005, № 11, maddə 1076; 2006, № 1, maddə 59; 2009, № 4, maddə 290, № 10, maddə 846;2012, № 9, maddə 942; 2014, № 2, maddə 201) ilə təsdiq edilmiş "Dövlət müəssisə və təşkilatlarının, habelə nizamnamə kapitalında dövlətin payı olan müəssisələrin balansında olan yararsız hala düşmüş, həmçinin oğurlanmış və ya naməlum şəraitdə itmiş əsas vəsaitlərin (fondların) silinməsi və bu vəsaitlərin söküntüsündən əldə edilən material qiymətlilərinin satışı üzrə Qaydalar"da aşağıdakı dəyişikliklər edilsin:

1. 2.6-cı bəndə "rəy alındıqdan sonra" sözlərindən sonra "(Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla)" sözləri əlavə edilsin.

2. 2.7-ci bənddə "bütün hallarda" sözləri "Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla," sözləri ilə əvəz edilsin.

3. 2.11-ci bənddə "Xüsusi" sözü "Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla, xüsusi" sözləri ilə əvəz edilsin.

4. 2.14-cü bəndə "rəyi əsasında" sözlərindən sonra "(Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla)" sözləri əlavə edilsin.

5. Həmin qaydalara 2 nömrəli əlavənin "Qeyd" hissəsinin ikinci abzasından "bütün hallarda" sözləri çıxarılsın və həmin abzasa "rəyi əsasında" sözlərindən sonra "(Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla)" sözləri əlavə edilsin.

6. Həmin qaydalara 3 nömrəli əlavənin "Qeyd" hissəsinin ikinci abzasından "bütün hallarda" sözləri çıxarılsın və həmin abzasa "rəyi" sözündən sonra "(Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla)" sözləri əlavə edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***